# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

13 (65) 17 sentyabr 2016-cı il

İctimai-siyasi qəzet


## İlham Əliyev Bakıdakı 311 nömrəli orta məktəbin yeni binasının açılışında iştirak edib



Prezident İlham Əliyev sentyabrın 15-də - Bilik günündə Bakının Sabunçu rayonunda yerləşən 311 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış oldu.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı Azərbaycan Prezidentinə məlumat verdi. Qeyd edildi ki, 960 şagird yerlik üçmərtəbəli məktəbdə tədris iki növbədə aparılacaq.

Məktəbdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyev təhsil ocağının müəllim və şagirdləri ilə görüşdü.

Sonda xatirə şəkli çəkdirildi.

## İlham Əliyev Bakıdakı 32 nömrəli məktəbin yeni tədris korpusunda yaradılan şəraitlə tanış olub




Bakının Nizami rayonundakı 32 nömrəli tam orta məktəb üçün yeni tədris korpusu tikilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də yeni tədris korpusunda yaradılan şəraitlə tanış olub.

Məktəbdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işləri ilə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, 1963-cü ildən fəaliyyətdə olan məktəbdə bir neçə il bundan əvvəl əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib, məktəbin maddi-texniki bazası möhkəmləndirilib. Lakin sonradan şagird sıxlığına görə məktəbin genişləndirilməsi zərurəti yarandığından ərazidə yeni korpusun tikintisinə başlandı. Yeni korpusda 800 şagird yerlik 40 sinif otağı yaradılıb. Bütün sinif otaqları əyani vəsaitlər, tədris ləvazimatları ilə tam təchiz olunub. Yaradılan şərait isə ümumilikdə 1150 şagirdin təhsil aldığı məktəbin imkanlarını daha da genişləndirib. Belə ki, yeni dərs ilindən həm Azərbaycan, həm də rus bölmələrindən ibarət olan məktəb birnövbəli rejimə keçir.

Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, Bilik günündə məktəbə qədəm qoyan birinci sinif şagirdlərinə məktəbli çantası və digər dərs ləvazimatları hədiyyə ediləcək.

Prezident İlham Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət və qayğı, bu sahəni dövlət siyasətinin mühüm prioritetləri sırasına daxil etməsi təsadüfi deyil. Çünki ulu öndər Heydər Əliyevin də dediyi kimi, təhsil millətin gələcəyidir. Prezident İlham Əliyev də bu siyasəti uğurla davam etdirir. Bu siyasət həm də son illərdə tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib.

## Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obamadan Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident,

Mişel və mən Sizi, bütün dünya müsəlmanlarını və Həcc ziyarətini uğurla başa vurmuş zəvvarları Qurban bayramı münasibətilə təbrik edirik.

Həcc ziyarəti fərqli mədəniyyətə malik və müxtəlif ölkələrdən olan milyonlarla insanın dualar etmək, dərindən düşünmək və xoş niyyətlərini bölüşmək üçün bir araya gəlməsinin bariz nümayişidir.

Qurban bayramı müsəlmanların İbrahim peyğəmbərin oğlunu qurban verməyə hazır olmasını yad etməklə özlərinin savab işlər gördükləri bir xeyriyyəçilik məqamıdır. Birləşmiş Ştatlarda və dünyanın hər yerində milyonlarla müsəlmanın ehtiyacı olanlara yardım etmələri məni ruhlandırır.

Milyonlarla insanın münaqişə və təbii fəlakət nəticəsində evlərini və öz icmalarını itirməsi, yeni yurd-yuva qurmağa çalışması ehtiyacı olanlara yardım etməyə mənən borclu olduğumuzu bizə daim xatırladır. Yardım, fədakarlıq və sülhyaratma bütün etiqadlardan olan insanların ortaq dəyərlərinin əsasını təşkil edir.

Amerika xalqı adından dünyanın hər yerindəki müsəlman icmalarını mübarək Qurban bayramı münasibətilə təbrik etmək istərdik.

Qurban bayramınız mübarək, Həcc ziyarətiniz qəbul olsun.

**Səmimiyyətlə,**
**Barak Obama**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti**

## İlham Əliyev Bakıdakı 12 nömrəli orta məktəb üçün tikilmiş yeni tədris korpusunda yaradılan şəraitlə tanış olub

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Prezident İlham Əliyevə məlumat verdi ki, əsası 1974-cü ildə qoyulan bu məktəb bir neçə il bundan əvvəl əsaslı təmir olunub. Lakin ərazidə əhali sıxlığının artması məktəbə gələn şagirdlərin sayının çoxalmasına təsir göstərdiyindən 12 nömrəli məktəb üçün də yeni korpusun tikintisinə qərar verildi. Bununla da 960 şagird yerlik məktəbin ərazisində 432 şagird üçün nəzərdə tutulan və 18 sinif otağından ibarət yeni bina inşa olunub. Nəticədə məktəb birnövbəli sistemə keçib. İndi geniş və işıqlı sinif otaqları məktəbdə tədris prosesinin yüksək səviyyədə aparılmasına imkan verir.

Beləliklə, ötən illərdə ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəb binası tikilib, bir çox təhsil ocağı üçün yeni tədris korpusları inşa olunub. Bu proses ən ucqar yaşayış məntəqələrini də əhatə edib. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu proqrama hərtərəfli dəstək göstərib. Bununla da Azərbaycanda yüzlərlə məktəbin tikilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, bir sözlə, ölkədə nəhəng təhsil infrastrukturunun formalaşdırılması yeni təhsil modelinin tətbiqindən irəli gələn uğurlar sayəsində mümkün olub. Bu modelin nailiyyətləri isə mükəmməl təhsil konsepsiyası təşkil edir.

AZƏRBAYCAN VETERANI

# Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər zamanın tələbidir" mövzusunda konfrans keçirildi

Konfransı giriş sözü ilə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, e.o general-mayor D.Rzayev açdı, ilk növbədə ölkəmizin azadlığı uğrunda həyatlarını qurban vermiş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etməyi təklif etdi. Anım dəqiqəsindən sonra nitqinə davam etdi: "Hörmətli Konfrans iştirakçıları, dəyərli qonaqlar, Əziz veteranlar! Bu gün biz burada 2016-cı il 26 sentyabr referendumuna hazırlıq çərçivəsində mühüm bir tədbirə toplaşmışıq. Hamınıza məlumdur ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncama əsasən 2016-cı il sentyabrın 26-da Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ölkədə ümumxalq səsverməsi (referendum) keçiriləcəkdir. Bu günki konfransımız mühüm bir mövzuya həsr olunmuşdur. Azərbaycanın hər yerində, müxtəlif idarə-müəssisələrdə, ictimai və siyasi təşkilatlarda yaradılmış təşəbbüs qrupları



tərəfindən bu mühüm dövlət tədbirinə hazırlıqla bağlı müzakirələr keçirilir, təkliflər irəli sürülür. Biz həmişə olduğu kimi bu məsələdə də birincilər cərgəsində olmuşuq, avqust ayının 2-də Respublika Veteranlar Təşkilatında Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsində təşviqat qrupu qismində iştirak etmək üçün təşəbbüsçülərin yığıncağını keçirərək təşəbbüs qrupu yaratmışıq. Referendumun keçirilməsində başlıca məqsəd Azərbaycanın daha güclü, hərtərəfli inkişaf etmiş ölkəyə çevrilməsi üçün, mövcud sabitliyin qorunması üçün daha möhkəm, etibarlı zəmin yaradılmasından ibarətdir. Həm bizim regionda, həmçinin dünyanın digər ərazilərində baş verən hadisələr göstərir ki, sabitliyi qoruyub saxlamadan heç bir inkişafa nail olmaq mümkün deyildir. Başlıca məqsədlər sırasında dövlət idarəçilik mexanizmlərinin təkmilləşdirilməsi xüsusi qeyd edilməlidir. Azərbaycanın dinamik inkişafı bu istiqamətdə müvafiq addımların atılmasını zəruri etmişdir və gözlənilən dəyişikliklər ölkənin siyasi və iqtisadi həyatında islahatların aparılmasına imkan verəcəkdir. Bu gün biz burada referenduma çıxarılmış bu və digər məsələlərlə bağlı mütəxəssislərin, hüquqşünasların, veteranların fikirlərini eşidəcək, Sizinlə bərabər müzakirələr aparacağıq". Sonra söz çıxışçılara verildi:

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov söz alaraq, Prezident cənab İlham Əliyevin müvafiq sərəncamı və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəyi əsasında 2016-cı ilin 26 sentyabr tarixində konstitusiyaya ediləcək əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsinin (referendum) keçiriləcəyini bildirdi. C.Xəlilov ana yasaya ediləcək əlavə və dəyişiklərlə bağlı referendumun keçirilməsi təşəbbüsünün dövlətimizdə həyata keçirilən uğurlu siyasətin nəticəsi olduğunu vurğuladı. Son illər ərzində ölkəmizdə bütün sahələrdə dinamik inkişafın müşahidə olunduğunu və bu səbəbdən qanunvericilik bazasının təkmilləşdirilməsinin mühüm əhəmiyyəti olduğunu söylədi. Konstitusiyaya ediləcək əlavə və dəyişikliklərin vacib siyasi əhəmiyyətini qeyd etdi, bu təşəbbüsün Azərbaycanın növbəti uğurlarına hədəfləndiyini bildirdi. Azərbaycan cəmiyyətinin daim inkişaf etdiyini və bu inkişafın nəticəsi olaraq cəmiyyətimizdə daha mütərəqqi və təkmilləşdirilmiş qanunların tətbiq edilməsi zərurətinin yarandığını qeyd etdi. Konstitusiyaya ediləcək əlavə və dəyişikliklərlə bağlı referendum aktı layihəsinin yüksək əhəmiyyətini vurğuladı. Müxtəlif illərdə konstitusiyaya edilən əlavə və dəyişikliklərin xalqımızın dəstəyi ilə qəbul edildiyini və növbəti referendumun da xalqımız tərəfindən yüksək etimadla baş tutacağına əminliyini vurğuladı.

Növbəti çıxışçı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayev çıxış edərək, sentyabrın 26-da reallaşacaq referendum aktının mahiyyəti haqqında məlumat verdi. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunmasından keçən 21 il ərzində reallaşacaq bu referendum sayca keçiriləcək üçüncü referendum olduğunu bildirdi. Bu 21 il ərzində 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də keçirilmiş referendumların əhəmiyyəti və mahiyyəti haqqında, eləcə də hazırkı keçiriləcək referendum aktının 29 maddədən, yəni, 23 maddəsinə təklif olunan dəyişiklik və əlavə 6 maddənin mahiyyəti, xüsusiyyətləri haqqında danışdı. O cümlədən, konstitusiyaya təklif edilən əlavə və dəyişikliklərin 3 blokda cəmləşdiyinin qeyd edərək, onları izah etdi. Bütün həyata keçiriləcək əlavə və dəyişikliklərin dövlətimizin və millətimizin inkişafına, daha böyük uğurlar, nailiyyətlər qazanmasına zəmin yaradacağını söylədi. Çıxışda xüsusilə əlavə və dəyişikliklərin geniş hüquqi təhlini tədbir iştirakçılarının diqqətinə çatdırdı.



Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitunun prorektoru, hüquq elmləri doktoru professor Bəhram Zahidov çıxış edərək, Konstitusiyamızda ediləcək dəyişiklikləri dəstəklədi və müstəqilliyimiz, təhlükəsizliyimiz, dünyada gedən qlobal proseslərdə Azərbaycanın maraqlarının müdafiəsi, ölkə prezidenti cənab İlham Əliyev tərəfindən aparılan mütərəqqi siyasətin mahiyyəti vətəndaş cəmiyyətinin inkişafı və referendumda konstitusiyaya təklif edilən dəyişikliklər və əlavələr və daha sonra Azərbaycan dövlətinin inkişafı ilə əlaqədar məsələlərə kompleks münasibət bildirdi. Ölkə gəncliyinin seçilmək hüququnu nəzərə çatdıraraq, Azərbaycan gəncliyini savadlı, elmli və həmişə yüksək postlarda görmək istədiyini qey etdi.

Sonra söz Respublika Veteranlar Təşkilatının hüquqşünası Vüsalə Cəfərliyə verildi. O, çıxış edərək, sonuncu referendumdan ötən 7 ildə Azərbaycan dinamik inkişaf etdiyini, ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında əsaslı dəyişikliklərin baş verdiyini qeyd edərək, beynəlxalq tələblərə əsaslanaraq, dövrün tələblərinə uyğun şəkildə dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi, ictimai münasibətlərin tənzimlənməsi və digər bu kimi məsələlərin həlli ilə bağlı islahatların həyata keçirilməsi adi və zəruri praktika olduğunu, Konstitusiyaya əlavə və dəyişikliklər Azərbaycan Respublikasında vətəndaşların hüquq və azadlıqlarının daha səmərəli qorunması, dövlət strukturlarının zamanın tələblərinə uyğun formada təkmilləşdirilməsi, vətəndaşların öz hüquqlarının müdafiəsi məqsədilə məhkəmələrə müraciətlərinin tam şəkildə təmin edilməsi, o cümlədən, seçkili orqanlarda iştirak və burada olan yaş məhdudiyyətlərinin aradan qaldırılması zərurətindən, bilavasitə Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyalardan, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasından irəli gələn dəyişikliklər olduğunu qeyd etdi. Yaş məhdudiyyətinin aradan qaldırılması və endirilməsi ölkəmizdə bilik və təcrübəsi ilə cəmiyyətdə tanınan gənclərin idarəetməyə cəlb edilmə imkanının yaranması zərurətindən irəli gəldiyini , onların potensialından milli və dövlət maraqları üçün istifadə olunması dövrün aktual tələblərindən biri olduğunu, o cümlədən təklif edilən dəyişikliklərin gənclərin dövlət idarəetmə sistemində fəal iştirakına şəraitin yaradılmasını nəzərdə tutduğunu və 18 yaşından etibarən gənclər seçkili orqanlarda öz şansını sınaya biləcəklərini söylədi. Daha bir neçə hüquqi aspektə toxundu və xalqımıza, ölkəmizə sülh-əminamanlıq arzuladı.

Ardınca çıxış üçün söz Respublika Veteranlar Təşkilatının əməkdaşı Əliş Əliyevə verildi. O, da öz növbəsində referenduma ediləcək dəyişikliklərin əhəmiyyətindən danışdı. Ümumilikdə konstitusiyaya ediləcək əlavə və dəyişikliklərin son 7 il ərzində Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş vermiş köklü dəyişikliklər, eləcə də regionda və dünyada baş verən geosiyasi proseslərin zərurətindən irəli gəldiyini vurğuladı. Veteranların ölkə rəhbərliyini daima dəstəkləməsini bildirdi ki, xalqımız prezidentimizin ətrafında sıx birləşməlidir ki, torpaqlarımızı azad edək. Ölkəmizdə keçirilən bütün dəyişikliklər yalnız tərəqqimiz üçün olduğunu qey edərək, bir neçə maddə üzərində təhlillər apardı. Qabaqcıl ölkələrin idarəetməsindən danışaraq, bu gün Azərbaycanın xarici və daxili siyasətinin güclənməsi üçün bu dəyişikliklərin əhəmiyyətini bildirdi. Üzünü gənclərə tutaraq, onların seçmək hüquqları olduğu kimi artıq seçilmək hüquqlarının olacağını da böyük sevinc hissi ilə bildirdi.

Sonra konfrans müzakirələrlə davam etdi. Müzakirələrdə tədbir iştirakçılarının sualları cavablandırıldı, dəyişikliklərlə bağlı müzakirələr edildi. D. Rzayev tədbirin sonunda konfransda çıxış edənlərə və müzakirələrə qoşulanların hamısına bir daha təşəkkür etdi, tədbir iştirakçılarına minnətdarlığını bildirdi, hamını referendumda fəal olmağa çağırdı.

***Səidə Abdullayeva***

# Sumqayıt şəhər Veteranlar Təşkilatının gördüyü işlər, beynəlxalq əlaqələrin genişlənməsi yolunda atdığı addımlar

**Sumqayıt cavandır... cavandan cavan**
**Arzusu, istəyi nura boyanmış**
**Sumqayıt oxuyur göylərə meydan**
**Ayağı torpaqda möhkəm dayanmış!**



Sumqayıt bizim Vətənimiz, dostumuz, köməkçimiz, tükənməz ilham çeşməmizdir. O, gənclərimizin qəhrəmanlıq simvolu, gəncliyin qaynar təcəssümüdür.

Şəhərimizin İcra Başçısı Zakir Fərəcov Sumqayıtın bugünkü simasını dəyişdirdi, gözəlləşdirdi, müasirləşdirdi və cavanlaşdırdı. İndi artıq şəhərdə durmadan abadlıq, quruculuq və yaşıllaşdırma işləri aparılır ki, bu da əhaliyə göstərilən mənəvi xidmətin bariz nümunəsidir. Dənizkənarı ərazidə "Park Bulvar"ın salınması, "Heydər Əliyev Mərkəzinin yenidən tikilməsi, "Şahmat Klubunun" , "Musiqi məktəblərinin" yenidən inşası, yolların genişləndirilməsi Sumqayıt sakinlərinin qəlbində gələcəyə böyük ümid yaradır. Pilot layihəsi kimi Respublikamızda ilk unikal layihə olan "Sumqayıt Avtomobil Nəqliyatı ilə Sərnişindaşıma İdarəsinin yaradılması layihəsidir".

Biz veteranlar Cənab Zakir Fərəcovun bu qısa müddətdə gördüyü işlərə biganə qala bilmərik. Təşkilatımız da öz işini elə qurmalıdır ki, şəhərimizə layiq olsun. 6000 ə yaxın Müharibə, Əmək, Silahlı Qüvvələr Veteranlarını öz ətrafında birləşdirən Təşkilata Leyla Qasımzadə rəhbərlik edir. O, Rusiyanın Smolensk şəhərində anadan olmuş, 3 yaşında ikən anasını itirmiş, Naxçıvanda ata nənəsinin himayəsində böyümüşdür. Orta təhsilini Naxçıvanda aldıqdan sonra Bakıda Xarici Dillər İnstitutunu bitirib taleyini Sumqayıta bağlamışdır.

4 övlad, 6 nəvə, 2 nəticə sahibi olan müəllimə 52 il gənc nəslin təlim-tərbiyəsilə məşğul olmuş, 1990 - cı ildən "Fərdi" təqaüdə çıxmışdır. 20 ildən çox Veteranlar Təşkilatında sədr müavini, 2010-cu ildən isə sədr vəzifəsində çalışır. İşinə məsuliyyətlə, vicdanla yanaşan müəllimə təşkilatın işini günün tələbləri səviyyəsində qurmağa çalışır.

Müstəqilliyini bərpa etmiş Dövlətimizin ideologiyasının, həmçinin Azərbaycançılıq, doğma yurda-xalqa bağlılıq eyni zamanda gənclərimizin vətənpərvərlik, hərbi vətənpərvərlik ruhunda tərbiyə almaları üçün biz veteranların qarşısında böyük vəzifələr durur. Çünki Azərbaycançılıq azəri xalqının strateji ideologiyası və qlobal siyasət üçün nəzəri bazadır.



Təşkilatımız məktəblərdəki şagirdlərlə, ali məktəblərdəki-kolleclərdəki tələbələrlə, Gənclər və İdman Baş idarəsilə, Sumqayıt ətrafında fəaliyyət göstərən "N" hərbi hissələrin komandirləri ilə sıx əlaqə saxlayaraq gənclərimizi vətənpərvərlik ruhunda tərbiyə etməyə çalışıb. Belə ki, Gənclər evində keçirdiyi "Multikulturalizm və Tolerantlıq nədir" mövzusundakı tədbirdə qeyd olundu ki, Azərbaycan bugün dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük humanitar Əməkdaşlıq mərkəzinə çevrilib. Burada bütün xalqların ürəyi eyni ritmlə vurur. Və bundan başqa bir sıra silsilə tədbirlər: "Ümumdünya gənclər günü", "Dünya Azərbaycanlıların həmrəylik günü", "Beynəlxalq Əlillər günü", Beynəlxalq Ahıllar günü","Ailədə uşaqların tərbiyəsində valideynlərin rolu", "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixindən", "Dövlət Müstəqilliyi günü", "Qardaşlaşmış şəhərlər günü"-Sumqayıt-Ludviqshafen şəhərlərinin Qardaşlaşması, "Vətənə sevgi ailədən- məktəbdən başlayır", Milli mədəniyyətimizin tarixi " Kitabı Dədə Qorqud", " Azərbaycan Silahlı Qüvvələr günü", Sumqayıtda və H.Z.Taqiyev qəsəbələrində yerləşən "N" hərbi hissələrdəki komandir və gənc əskərlərlə görüş və veteranların gənc əskərlərə tövsiyələri, Milli Qəhrəman Mübariz İbrahimovun yaşamış olduğu Biləsuvar rayonuna səyahət, onun oxumuş olduğu məktəbdə müəllimlər və sinif yoldaşları ilə görüş və s.

Sumqayıt şəhər Veteranlar Təşkilatı əhatə dairəsini genişləndirmək üçün xarici ölkələrdəki Veteranlar Təşkilatı ilə də sıx əlaqə saxlayır.

Avstriyanın Vyana və Qraç şəhərlərindəki "Qara Xaç" Cəmiyyəti, Türkiyənin Şimalı Kipr şəhərindəki Əməkçilər Cəmiyyəti ilə əlaqə saxlayıb təcrübə mübadiləsi aparmağa nail olmuşdur. Belə ki, Vyana və Qraç şəhərlərindəki Veteranlar Təşkilatında Leyla Qasımzadə, Şimalı Kiprdəki Əməkçilər Təşkilatında təşkilatın məsul katibi Məşdi Zeynalov olmuş və xeyli təcrübə toplayaraq işlərində tədbiq etməyə çalışmışlar. Oradan gətirilən bayraqlar, kitablar , jurnallar və müxtəlif suvenirlər təşkilatın üzvüləri tərəfindən maraqla qarşılanmışdır. Bu hədiyyələr təşkilatın bir guşəsində qorunub saxlanılır.Vyanadan və Şimalı Kiprdən olan nümayəndələr də Sumqayıta gəlmək və işimizlə tanış olmaq arzusundadırlar.

***Məşdi Zeynalov***
***Sumqayıt şəhər Veteranlar Təşkilatının məsul katibi***

# Sumqayıtda "Sülh aylığı" çərçivəsində dəyirmi masa keçirilib

Sumqayıt Şəhər İcra Hakimiyyətinin təşəbbüsü, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə həyata keçirilən "Sülh aylığı" çərçivəsində Sumqayıtdakı Tarix Muzeyində "dəyirmi masa" keçirilib.

Dəyirmi masada Sumqayıt şəhər Müharibə, Əmək, Silahlı Qüvvələr Veteranları Təşkilatının, Qarabağ Müharibəsi Veteranları Birliyinin, dövlət və qeyri-hökumət gənclər təşkilatlarının nümayəndələri və fəal gənclər iştirak ediblər.

Sumqayıt Şəhər Veteranlar Təşkilatının sədri Leyla Qasımzadə, Baş İdarənin gənclərlə iş sektorunun baş məsləhətçisi Ceyhun Hüseynov, "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Sumqayıt şəhər filialının sədri Tərlan Hacızadə çıxışlarında sülhə xidmət edən multikulturalizm və tolerantlığın Azərbaycanın dövlət siyasətinin tərkib hissəsi olmasından danışıblar. Çıxışlarda, həmçinin ulu öndər Heydər Əliyevin təməlini qoyduğu bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizdə insan hüquq və azadlıqları sahəsində qazanılan nailiyyətlərdən söhbət açıblar.

Təəssüflə vurğulanıb ki, sülhə və təhlükəsizliyə məhəl qoymayan Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini bu gün də davam etdirir. Ermənistan əzəli Azərbaycan torpaqlarını illərdir işğal altında saxlayır, atəşkəs rejimini mütəmadi pozur.



Gənclər çıxışlarında Azərbaycanın tarixən sülhün tərənnümçüsü olduğunu, ölkəmizdə tolerantlıq ənənələrinin daim hökm sürdüyünü, multikultural dəyərlərin qorunduğunu, müasir dövrdə də milli mənəvi dəyərlərimizin tərkib hissəsi kimi, bu ənənələrin davam etdirildiyini bildiriblər.

Tədbir maraqlı müzakirələrlə davam etdirilib.

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatı gənclərin vətənpərvərlik tərbiyəsi işinə xüsusi diqqət ayırır

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!" adlı layihənin icrasını təmin etmək məqsədi ilə 02 sentyabr 2016-cı il tarixdə Şəki şəhərində seminar-müşavirə keçirtmişdir.



Layihənin rəhbəri - Respublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Qərib oğlu Rzayevdir.

Seminar -müşavirəni Respublika Veteranlar Təşkilatın sədr müavini polkovnik Cəlil Malik oğlu Xəlilov açaraq layihə haqqında məlumat verib.

Layihə Qarabağ uğrunda müharibədə şücaət göstərərək Azərbaycanın Milli Qəhrəmanları adına layiq görülmüş, eyni zamanda, 2016-cı ilin aprel ayında şəhid olan hərbçilərimizin həyatından və döyüş yolundan bəhs edir.

Layihənin əsas mahiyyəti xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan Azərbaycan övladlarının keçdiyi şərəfli həyat yolunun yeniyetmə və gənclərə daha yaxından tanıdılması, onlarda xalqına, dövlətinə sədaqət, tarixinə hörmət, vətənpərvərlik ruhunun gücləndirilməsi, həmçinin onlar arasında milli-mənəvi dəyərlərimizin, dövlətçilik ənənələrimizin təbliği istiqamətində dövlət orqanlarının apardığı işə dəstək verilməsidir.




Layihənin əsas məqsədi ölkədə yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində görülən işlərdə yaxından iştirak etmək, Azərbaycan dövlətinin həyata keçirdiyi Dövlət Gənclər siyasətinə dəstək vermək, gənc nəslə hərb tariximiz, döyüş ənənələrimiz, milli qəhrəmanlarımız, tarixi abidələrimiz haqqında geniş bilgilər çatdırmaqla maarifləndirmə işləri aparmaq, gənc nəslin Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına hər an hazır olmaq ruhunda yetişmələri məqsədilə müvafiq təbliğat işləri aparmaq, yeniyetmə və gənclərə ən ağır problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı Azərbaycanın dövlət mövqeyinin çatdırılması ilə onları hərtərəfli məlumatlandırmaqdır.




Seminar-müşavirədə Şəki, Balakən Qəbələ, Qax, Oğuz, Zaqatala, Mingəçevir şəhər (rayon) veteran təşkilatlarının sədrləri, eyni zamanda Şəki şəhər Veteranlar Təşkilatının əməkdaşları, həmin rayonun fəal gəncləri, veteranları, şəhid ailələri, müvafiq dövlət və ictimai təşkilatlarının nümayəndələri iştirak etmişdir.

Seminar-müşavirədə "Aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnaməsinin parlaq səhifəsidir", "Qəhrəmanlar unudulmur", "Xalqı qəhrəmanlar ucaldır", "Şəki qəhrəmanlar diyarıdır" mövzularında məruzələr dinlənilib, çıxışlar olub.

Tədbirin sonunda Azərbaycan Milli Qəhərmanlarına həsr olunan film nümayiş etdirilib, bir neçə şəhid ailəsinə ərzaq yardımı edilib.



## Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!" adlı layihənin icrasını təmin etmək məqsədi ilə 06-07 oktyabr 2016-cı il tarixdə Masallı şəhərində seminar–müşavirə keçiriləcəkdir. Seminar-müşavirə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının əməkdaşları tərəfindən həyata keçiriləcək.

Layihə Qarabağ uğrunda müharibədə şücaət göstərərək Azərbaycanın Milli Qəhrəmanları adına layiq görülmüş, eyni zamanda, 2016-cı ilin aprel ayında şəhid olan hərbçilərimizin həyatından və döyüş yolundan bəhs edir.

Layihənin əsas mahiyyəti xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan Azərbaycan övladlarının keçdiyi şərəfli həyat yolunun yeniyetmə və gənclərə daha yaxından tanıdılması, onlarda xalqına, dövlətinə sədaqət, tarixinə hörmət, vətənpərvərlik ruhunun gücləndirilməsi, həmçinin onlar arasında milli-mənəvi dəyərlərimizin, dövlətçilik ənənələrimizin təbliği istiqamətində dövlət orqanlarının apardığı işə dəstək verilməsidir.

Seminar-müşavirəyə Lerik, Astara, Yardımlı, Cəlilabad, Neftçala, Biləsuvar, Lənkəran şəhər (rayon) veteran təşkilatlarının sədrləri dəvət olunublar. Eyni zamanda seminar-müşavirədə Masallı Rayon Veteranlar Təşkilatının əməkdaşlarının, həmin rayonun fəal gənclərinin, veteranlarının, müvafiq dövlət və ictimai təşkilatlarının nümayəndələrinin iştirakı nəzərdə tutulur.

Layihənin rəhbəri ehtiyatda olan general-mayor Dadaş Rzayevdir.

## Böyük Vətən müharibəsi veteranı, Azərbaycan Respublikası prezidentinin fərdi təqaüdçüsü Ağadadaş Əbülqasım oğlu Səmədov 92 yaşında yaşadığı Lənkəran rayonunun Vilvan kəndində vəfat edib

Ağadadaş Səmədov 1924-cü ilin mart ayının 10-da Lənkəran rayonunun Vilvan kəndində anadan olub. O, 1942-ci ildə Lənkəran Subtropik bitkiçilik texnikumunu bitirib. Elə həmin ilin oktyabırın 26-da müharibəyə yollanan Ağadadaş Səmədov 77-ci Azərbaycan diviziyasının 105-ci Taborunun tərkibində Mazdokdan Berlinə qədər döyüş yolu keçib. O, müharibədə böyük şücaət göstərib. Dəfələrlə ölümlə üz-üzə gəlib. Qəhrəmanlığına görə 2 dəfə 3-cü və 2-ci dərəcəli Şöhrət ordenləri ilə təltif olunub. Lakin onun bu mükafatlandırma haqqında dəqiq məlumatı olmayıb. 1945-ci ilin dekabrında doğma kəndinə qayıdıb və 1980-cı ildə təqaüdə çıxana kimi orada aqronom işləyib. 13 övladı, 44 nəvəsi, 26 nəticəsi var.

1942-ci ildə Ukrayna ərazisində Dubno yaxınlığında rota geri çəkildikdən sonra o, əsas qüvvələr gələnə kimi müdafiəni təkbaşına saxlayıb. Buna görə də III Dərəcəli Şöhrət ordeni ilə təltif dilib. O, Vislo-Oder əməliyyatında və Berlinə hücumda iştirak edib. 6 iyun 1945-ci il əmrilə Böyük Vətən Müharibəsində göstərdiyi şücaət və igidliyə görə A.Səmədov II Dərəcəli Şöhrət ordeni ilə təltif edilib.



Rusiya Prezidenti D.Medvedyev 2008-ci ilin iyulunda Azərbaycana rəsmi səfəri zamanı II və III dərəcəli "Şöhrət" ordenini A.Səmədova şəxsən təqdim edib. Bu mükafat veterana hələ müharibə vaxtı verilib. Lakin o, həlak olmuş sayıldığından ordeni ala bilməmişdir.

Ağadadaş Səmədov Rusiya prezidenti Dmitri Medvedyev tərəfindən 2009-cu ildə faşizm üzərində qələbənin 64-cü ildönümü münasibətilə Moskvada keçiriləcək tədbirdə iştirak etmək üçün dəvət almışdır. Rusiya prezidenti tərəfindən şəxsən dəvət edilən bəzi şəxslərdəndir və yeganə Azərbaycan vətəndaşıdır.

Rusiya prezidenti tərəfindən ona təqdim olunan "Şöhrət" ordenlərindən başqa, A.Səmədov I dərəcəli Vətən Müharibəsi ordeni, 10-dan çox medal və fəxri nişanlarla təltif edilib.

Onu da əlavə edək ki, 1948-ci ildə A. Səmədov Fəxrəndə xanımla ailə qurmuşdur. 1988-ci ildə Fəxrəndə Səmədova vəfat edib. Ağadadaş Səmədovun 13 övladı var. Onlardan 3-ü oğlan, 10-u qızdır. 44 nəvəsi 50-ə yaxın nəticəsi və 2 kötücəsi var.

Mərhum kənd qəbirstanlığında ehtiramla dəfn olunub.

***Allah rəhmət eləsin.***

# "Xəzər ulduzları"

"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin Mədəniyyət Şöbəsinin nəzdində Sayad Quliyevanın rəhbərliyi ilə "Xəzər ulduzları" adlı uşaqlardan ibarət rəqs dərnəyi fəaliyyət göstərir. "Xəzər ulduzları" İctimai Birliyin təşkil etdiyi və eləcə də digər tədbirlərdə böyük məharətlə öz rəqslərini nümayiş etdirirlər.

İyulun 26-da Sumqayıt şəhərində yerləşən N.Nərimanov adına Mədəniyyət Evində "Xəzər ulduzları" 8 illik yubileyini gözəl konsert proqramı ilə qeyd etdi. Tədbirdə uşaqlar milli rəqslərimizlə yanaşı dünya xalqlarının da rəqslərini böyük məharətlə, yüksək profesionallıqla ifa etdilər. Rəqslərin quruluşu gənc olmasına baxmayaraq, çox istedadlı xoreoqraf Kamil Ağazadəyə məxsusdur. Kamil Ağazadə özü də çıxışında bu işindən böyük zövq aldığını, bunun ona həyatda stimul verdiyini bildirdi. Kamil həm də gənc müğənni kimi gözəl səsə malikdir. Tədbirdə Kamil Ağazadə və digər gənc müğənnilər çıxış etdilər.

"Beynəlxalq Əlillər Cəmiyyəti" İB-in Novxanı Nümayəndəliyinin rəhbəri Lalə Abuzərova öz çıxışında "Xəzər ulduzları"na və Kamil Ağazadəyə uğurlar arzuladı, İB-in sədri Tahir Xudiyevə onları yenə də tək qoymayaraq verdiyi mənəvi dəstəyə görə, eləcə də imkansız və əlilliyi olan insanların özlərinə və ailə üzvlərinə göstərdiyi daimi diqqət və qayğıya görə təşəkkürünü bildirdi.



İB-in sədri Tahir Xudiyev çıxışında bildirdi ki, etiraf etmək lazımdır ki, Kamil Ağazadə gözəl səsə malik gənc müğənni olmaqla yanaşı, istedadlı müəllim kimi əlilliyi olan və imkansız ailələrin uşaqlarından ibarət olan bu dərnəyin yüksək səviyyədə fəaliyyət göstərməsində böyük zəhmət çəkmişdir. Tahir Xudiyev bu yaxınlarda İB-in dəstəyi ilə "Xəzər ulduzları"nın xarici ölkədə festivalda iştirak edəcəyini də bildirdi. Bu, uşaqların və valideynlərin sevincinə səbəb oldu. Tahir Xudiyev həm də tədbir iştirakçılarına, xüsusilə də başda xeyirxah insan Xatirə Cabbarzadə olmaqla tədbirdə çəkiliş aparan AMEA-nın "ElmTV" İnternet Televiziyasının əməkdaşlarına öz təşəkkürünü bildirdi.

Sonda "Xəzər ulduzları"na Kamil Ağazadənin hazırladığı diplom və fəxri fərmanlar təqdim edildi. Diplomları və fəxri fərmanları Tahir Xudiyev, Lalə Abuzərova, Sayad Quliyeva, İB-in hərbi işlər üzrə sədr müavini, ehtiyatda olan polkovnik Nazir Hüseynov, Sumqayıt şəhər Mədəniyyət Evinin direktoru Elnarə Rəşidova təqdim etdilər.

Tədbirdə valideynlər, ictimaiyyət və KİV nümayəndələri ilə yanaşı "Əlillər Dünyası" qəzetinin əməkdaşları da iştirak edirdilər.

Onu da qeyd edək ki, konsertdə Kamil Ağazadənin hazırladığı Azərbaycan folklar rəqsləri ilə bağlı film də nümayış etdirildi.

**"Əlillər Dünyası"**

# VƏTƏNSİZ QALIB

*(Laçın şəhər sakini, məcburi köçkün, Böyük Vətən Müharibəsi iştirakçısı 100 yaşlı Məmmədxanın xatirəsinə həsr olunur)*

Salam,Qoca qartal, Salam, Məmmədxan,
Durur hüzurunda oğullar, qızlar.
Babam, məğrur dayan! Hər zaman, hər an
Keçdiyin yol deyir buna haqqın var.

Qəlbində sızlayıb dərdin - sərin də
Ömrün gah qış olub, gah da ki, bahar
Hətta, Finlandiya döyüşlərində
Yüz illik ömrünün kədər izi var.

Girdin döyüşlərə beş il durmadan
Cəbhədən cəbhəyə atıldı bəxtin.
Vuruşda aldığın yaralarından
Ölüm - dirim oldu taleyin sənin.

Aramsız keçmisən oddan, alovdan.
Ustunə güllədən yağışlar yağıb.
Üzünə - gözünə ötüşdükcə an
Qələbə adında alqışlar yağıb.

Bəzəyib sinəni orden, medallar.
Döyüş anlarının xatirəsitək
Babam, sifətində qırışlar ki var
Hər biri ömrünün yoludur onlar.

Eh!...Yüz il nədir ki, sənin ömrünə
Dirilik suyunu içirəcəyik.
Neçə ildönümü sabahdan yenə
Doğma Laçınında keçirəcəyik.

Yaşa, müdrik babam, sənin haqqın var
Qəlbində nisgilin qatar - qatardır.
Səni əzizləyir şirin arzular.
Sənin Qarabağla görüşün vardır

Sən laçın qanadlı, laçın insansan.
Qoymarıq heç zaman Laçınsız səni.

Alıb sinəsinin üstünə hər ah
Aparar Laçına oğul, qız səni.
Deyirəm, ay Allah, taleyə bir bax.
İllər ürəklərə necə iz salıb?
Beş il Vətən deyib döyüşən insan
Bu gün Laçın adlı Vətənsiz qalıb.

***Şahid Məmmədkərimov***
***Şəki şəhər Veteranlar Təşkilatının Sədr müavini***

# ХРОНИКА ПЕРВЫХ ЧАСОВ ВОЙНЫ

***21 июня 1941 г., суббота 23 ч 00 мин, Москва До "внезапного" нападения осталось 4 часа 15 минут***

Уже на исходе 21 июня, за час до полуночи, нарком обороны Тимошенко срочно вызвал к себе наркома Военно-Морского флота адмирала Кузнецова:

"Считается возможным нападение Германии на нашу страну".

Жуков передал Кузнецову телеграмму, заготовленную для пограничных округов...

Вспоминает Кузнецов: "Пробежав глазами текст телеграммы, я спросил: "Разрешено ли в случае нападения применять оружие?" - "Разрешено".

Начиналась война. Дорога была каждая минута!

Да, адмирал Кузнецов понял правильно: "внезапное" нападение Германии ждали именно в эту ночь - 22 июня 1941 г.

Когда через несколько минут адмирал вернулся в свой наркомат, ему доложили, что телеграмма флотам уже ушла:

"Оперативная готовность № 1! Немедленно! Кузнецов".

Но передача телеграммы, даже такой короткой, как эта, занимала несколько минут, а времени не было! И Кузнецов начал звонить командующим флотами по телефону - каждому в отдельности! Первый звонок на Балтику - вице-адмиралу Трибуцу:

Не дожидаясь получения телеграммы, которая Вам уже послана, переводите флот на готовность номер один - боевую! Повторяю еще раз: боевую!"

Разговор наркома с Трибуцем закончился в 23 часа 35 минут, а еще через 2 минуты в журнале боевых действий Балтийского флота появилась запись: "23 часа 37 минут. Объявлена оперативная готовность № 1".

А Кузнецов продолжал звонить - командующему Северным флотом контр-адмиралу Арсению Головко, начальнику штаба Черноморского флота контр-адмиралу Ивану Елисееву...

И всем один короткий приказ: "Оперативная готовность № 1! Действуйте без промедления!"

В 2 часа 40 минут 22 июня 1941 г. весь Военно-Морской флот был уже в полной боевой готовности. Для советского флота "внезапное" нападение Германии не оказалось "внезапным"!



**22 июня 1941 г., воскресенье 2 ч 30 мин пограничные округа**

Весь советский флот уже полчаса как приведен в боевую готовность. А на сухопутной границе только в эти минуты началась передача директивы, заменившей собой приказ о введении в действие плана ПРИКРЫТИЯ-41, из штабов округов в штабы армий.

В штабы округов директива поступила только в 1.30 ночи. Это был совершенно новый, не имеющий ничего общего с ожидаемым ими приказом, документ. По свидетельству маршала Баграмяна, после получения директивы ее еще нужно было изучить, а затем подготовить распоряжения армиям. В большинстве штабов эта работа закончилась в 2.25-2.35 ночи. И только тогда застучала морзянка - и началась передача приказов в штабы армий.

Этот приказ не успеет дойти до войсковых частей. Бойцы не успеют получить боевые патроны и снаряды. Передовые части войск прикрытия не займут предполья. И когда через 45 минут на страну обрушится "внезапный" удар, многомиллионную германскую армию на границе встретит только горстка пограничников.



На протяженности более 3000 километров советскую границу будут защищать только пограничные войска НКВД - всего 100 000 человек!

Война началась и застала советские войска "врасплох". Граница фактически не была прикрыта!

Оставшиеся в живых участники этой катастрофы долгие годы будут задаваться вопросами: "Как такое могло случиться? Почему было запрещено говорить нам правду? Кто поверит, что Сталин не знал, что к границе подтянуто около 200 немецких дивизий?"

Сегодня можно уже прямо ответить на этот вопрос - бойцы и командиры пограничных войск НКВД, принявшие на себя первый смертельный удар врага, были принесены в жертву

Генерального сражения гауптшлахт, на которое так рассчитывал Гитлер, не вышло - главные сталинские силы в час "внезапного" нападения были далеко от границы.

**22 июня 1941 г., воскресенье 3ч 15 мин. Западная граница**

От Балтийского моря на севере и до Черного моря на юге содрогнулась земля. Запылала. Заволоклась дымом. Залилась кровью**.**

Бомбардировщики люфтваффе с черными крестами на крыльях сбрасывают свой смертоносный груз на заранее намеченные цели- аэродромы, склады горючего, железнодорожные узлы, военно - морские базы. Бомбы падают на освещенные беззащитные города, на спящих мирных жителей Прибалтики, Белоруссии, Украины. Вслед за бомбардировщиками ринулись лавины танков...

Пограничные войска НКВД

-100 000 бойцов и командиров

-не могли прикрыть границу протяженностью в 3000 километров, не могли остановить трехмиллионную армию. Бронированная гитлеровская военная машина - 3800 танков, 600 000 грузовиков - должна была раздавить их, должна была смести их с лица земли.



Трагичной была судьба бойцов и командиров пограничных застав, своими телами прикрывших границу. У многих из них даже нет могил. Так и остались они для родных и близких навеки пропавшими без вести.

Трагичной была судьба и жителей приграничных районов. На восток потянулись толпы беженцев. Их косили из пулеметов немецкие истребители. Их безжалостно давили гусеницами немецкие танки. Их догоняли немецкие бронетранспортеры, поливая свинцовым огнем мечущихся в смертельном страхе людей.



Повсюду была неразбериха. Смятение. Ужас. Повсюду был хаос. Повсюду была смерть.

**22 июня 1941 г.**
**12 ч 25 мин**
**Москва**

Девять долгих часов идет война. Германские войска уже на десятки километров продвинулись в глубь советской территории, неся повсюду разрушения и смерть. Все радиостанции мира трубят о нападении гитлеровской Германии на большевистскую Россию. А по московскому радио, как обычно, передают урок гимнастики, вести с полей, результаты экзаменов в школах.

И только в 12.15 все передачи советского радио прерываются, и неповторимый голос Юрия Левитана объявляет: "Го-во-ри-т Мо-с-кв-а! Работают все радиостанции Советского Союза! Передаем Заявление советского правительства!"

Речь Молотова запомнилась участникам этой войны и их потомкам, пожалуй, только одним крылатым лозунгом: "Наше дело правое! Враг будет разбит! Победа будет за нами!"

Враг был разбит. Была и победа. Победа! Но какой ценой?!

**21 июня 1941 г.**
**5 ч 45 мин утра**
**Москва**

Около 5 часов утра мир облетела давно ожидаемая "сенсация": "Свершилось! Свершилось! Гитлер напал на Россию!" Все радиостанции мира передают меморандум Гитлера. Гортанная немецкая речь прерывается взволнованными разноязычными голосами дикторов. Гудят провода. Звонят телефоны. Разбужены президенты, правители, шейхи, диктаторы, короли...

Опасения Сталина подтвердились - не желая быть объявленным агрессором, Гитлер пытается оправдать свое нападение на Россию необходимостью нанесения превентивного удара по сосредоточению советских войск.

И только теперь, после того как позиция Гитлера прояснилась, только теперь, через два с половиной часа после "внезапного" нападения, в кремлевском кабинете Сталина началось "экстренное" заседание Политбюро.

Как зафиксировано в известной "Тетради записи лиц, принятых Сталиным", именно в 5 часов 45 минут утра, а не в 4.30, как было принято считать, в кабинет вождя вошли Молотов, Берия, Мехлис, Тимошенко и Жуков.

Свидетельствует маршал Жуков: "Меня и наркома пригласили в кабинет, Сталин был очень бледен и сидел за столом, держа в руках не набитую табаком трубку. Мы доложили обстановку. Сталин недоумевающе сказал: "Не провокация ли это немецких генералов?" "Немцы бомбят наши города на Украине, в Белоруссии и Прибалтике. Какая же это провокация?" - ответил Тимошенко.

"Если нужно организовать провокацию, - сказал Сталин, то немецкие генералы бомбят и свои города..."

Вот о какой провокации говорит Сталин! О провокации, позволяющей свалить вину за агрессию на противника! С этой целью гитлеровцы могут бомбить и свои города! Сумели же они перед Польской кампанией захватить свою собственную радиостанцию в Глейвице и даже оставили на "поле боя", для большей убедительности, консервы. Несмотря на то, что нападение уже фактически совершилось, Сталин все еще опасается провокации. Опасается того, что с помощью какой-либо хитроумной уловки Гитлер может еще успеть срежиссировать более или менее обоснованный предлог для начала войны. Вот ведь и Риббентроп на пресс-конференции пытался обвинить в развязывании войны Россию, и в меморандуме Гитлера нападение представлено как вынужденное "выступление против иудейско-англосаксонских поджигателей войны и их помощников, а также евреев из московского большевистского центра".



**ИЗ "МЕМОРАНДУМА" ГИТЛЕРА 22 июня 1941 г.**
**Немцы! Национал-социалисты!**

После тяжелых размышлений, когда я был вынужден молчать в течение долгих месяцев, наконец наступил момент, когда я могу говорить с полной откровенностью... Москва предательски нарушила условия, которые составляли предмет нашего пакта о дружбе. Делая все это, правители Кремля притворялись до последней минуты, симулируя позицию мира и дружбы, также, как это было в отношении Финляндии и Румынии... Сейчас приблизительно 160 русских дивизий находятся на нашей границе. В течение ряда недель происходили непрерывные нарушения этой границы, причем не только на нашей территории, но и на край-нем севере Европы и в Румынии. Советские летчики развлекались тем, что не признавали границ, очевидно, чтобы нам доказать таким образом, что они считают себя уже хозяевами этих территорий. Ночью 18 июня русские патрули снова проникли на германскую территорию и были оттеснены лишь после продол-жительной перестрелки.

Теперь наступил час, когда нам необходимо выступить против этих иудейско-англосаксонских поджигателей войны и га помощников, а также евреев из московского большевистского центра... Поэтому я решил сегодня вложить судьбу и будущее Германской империи и нашего народа в руки наших солдат. Да поможет нам Бог в нашей борьбе!

И даже сейчас, после "внезапного" нападения, в меморандуме Гитлера, так же, как и в выступлении Риббентропа, не было произнесено слово "война".

***В. Яковенко,***
***полковник в отставке, кандидат исторических наук.***

# Qocalmağın qarşısını alan qidalar

*Zamanı durdurmaq mümkün deyil, amma doğru qidalanaraq daha sağlam və gənc görünə bilərsiniz. Siqaret istifadəsi və günəş şüalarına çox məruz qalmaq erkən yaşlanmaya səbəb olduğu qədər, qidaların da qocalmanın qarşısını almaq xüsusiyyətləri var. Nə yediyiniz sizin necə görünmənizə təsir edər.*



**Çöl qarağatı:**

Çöl qarağatı hafizəni gücləndirən flavonoidlərlə zəngindir. Səhər yeməyində 4 qaşıq yulaf əzməsi və 1 stəkan südün içinə 1 ovuc çöl qarağatı qatıb yemək yaşlanmanın qarşısını alacaq.

**Somon balığı:**

Somon balığının tərkibində bol miqdarda omega-3 yağ asidi və sərbəst radikallara qarşı təsirli bir piqment olan astaksantin var. Sərbəst radikallar DNA və hüceyrə membranına zərər verərək erkən qocalmaya səbəb olur. Bu xüsusiyyəti ilə somon balığı dərini yaşlanmağa qarşı qoruyur. Həftədə 1-2 dəfə yemək məsləhətdir.

**Çərəzlər:**

Qoz, badam və fındığın omega-3 yağ asitləri və A vitamini ilə zəngin olduğu məlumdur. Yağlı toxumlar zəngin membran yaradaraq, dərinin nəmli və yumşaq olmasını təmin edər. Eyni zamanda, qırışların qarşısını alar. Sağlam və gənc dəri üçün bu qidalardan gündə 1 ovuc yeyin.Sitrus meyvələri

Kollogen, dəri sağlamlığı və parlaqlığında önəmli rola malikdir. Əgər gənc görünən dəriyə sahib olmaq istəyirsinizsə, bədəninizdəki kollogenin dağılmasına mane olmalısınız. C vitamini ilə zəngin olan sitrus meyvələri kollogen istehsalını dəstəkləyir. Eyni zamanda hüceyrə ölümünün qarşısını alan və günəşin zərərli ultrabənövşəyi şüalarından qoruyan flavonoidlərlə də zəngindir. Hər gün 1-2 pors yeməyə çalışın.

**Yaşıl yarpaqlı tərəvəzlər:**

Kələm, ispanaq, çuğundur yarpağı, kahı və başqa yaşıl yarpaqlı tərəvəzlər tərkibindəki lutein sayəsində dərini günəşin zərərli təsirlərindən qoruyur və qırışların yaranmasına mane olur. Hər gün bol-bol yeyin.

**Tam taxıllı məmulatlar:**

Vitamin, mineral, antioksidan, lif və proteinlə zəngindir. Bu tərkib də dəriyə sağlam bir parlaqlıq qazandırır. Əsas və ara öyünlərdə gündəlik 3-4 pors yeyin.

**Qara şokolad:**

Qara şokolad kakao və dolayısıyla flavonoid ehtiva edir. Bu da diabet, yüksək təzyiq və ürək-damar xəstəliklərinin qarşısını almaqda faydalıdır. Qara şokolad yesəniz, sağlam ürəyə və gənc görünümlü dəriyə sahib olarsınız. Həftəyə 3-4 ədəd kvadrat şəklində qara şokolad yeyin.

**Qara üzüm:**

Qırmızı şərabın daha sağlam və parlaq bir dəriyə səbəb olduğunu eşitmisinizmi? Bu, doğrudur. Qırmızı şərabın bu xüsusiyyəti tərkibindəki qara üzümdən qaynaqlanmaqdadır. Həftədə 1 ovuc tumlu qara üzüm yemək, dərinizin günəş şüalarının zərərli ultrabənövşəyi şüalarından qorunmasını təmin edər.



# Qaraciyəri sağlam saxlamağın yolları



***Limon suyu***

Hər gün qaraciyərinizi təmizləmək və həzmi artırmaq üçün ilıq su ilə limon suyunu qarışdırıb. Bu üsul həm maddələr mübadiləsini yaxşılaşdırır, həm sağlam həzmi dəstəkləyir, həm də qəbizliyin qarşısını alır.

***Avokado***

Avokado dünyada sağlamlıq və gözəllik üçün istifadə edilir və sağlam tərzdə piylərin yandırılması üçün ən uyğun tərəvəz olduğu bilinir. Bundan əlavə, qaraciyəri də qoruyur. Yaponiyada edilən bir araşdırmada, avokadonun qaraciyəri qalaktozamin və bənzəri toksinlərdən qoruduğu ortaya çıxmışdır.



***Bol su***

Qaraciyəri təmizləmənin ən yaxşı yollarından biri gündə 6-8 stəkan su içməkdir. Bu həmçinin böyrəklərin təmizlənməsinə və arıqlamağa köməkçi olur. Bədən hər zaman nəmli qalmalıdır, bunu təmin etmək üçün ən yaxşı yol isə, bol miqdarda su içməkdir. Bu səbəbdən də, su qaraciyəri təmizləmək üçün ən əhəmiyyətli yollardan biridir.

***Sarımsaq***

Bir diş sarımsaq çox mühüm tibbi xüsusiyyət? malikdir. O, immuniteti gücləndirir və bədəni bakteriya və viruslara qarşı qoruyur. Sarımsaq həmçinin sulfidlə zəngindir. Bu səbəbdən də, qaraciyərə birbaşa müsbət təsir göstərir.

***Yaşıl çay***

Qaraciyəri təmizləmək üçün yaşıl çayın möcüzəvi bir bitki olduğu sübut edilmişdir. Bundan əlavə, şişlərdən və hepatitdən qorunmaq üçün əla vasitədir. Tərkibindəki xüsusi maddə xərçəng ilə mübarizə aparır və qaraciyərdə yığılan yağların həll edilməsinə köməkçi olur.

# Almanın faydaları

Avstraliyada aparılan araşdırmalara görə, gündə bir alma yemək daha uzun yaşamağa imkan yaradır.

Bu araşdırmaya görə, gündə bir alma yemək erkən yaşda ölüm riskini 35% azaldır. 70 və 85 yaşları arasındakı 1456 qadın üzərində 15



il ərzində aparılan araşdırmalar nəticəsində gündə 100 qram alma yeyən qadınların daha uzun yaşadığı aşkar edildi.

Doktor Conatan Hodcson, bu təsirin alma qabığındakı flavanoidlər və liflər sayəsində olduğunu söylədi. Flavanoidlər antioksidant təsirilə hüceyrələrin ziyan görməsinə maneə törədir. Alma qabığındakı liflər isə, xolesterolu və təzyiqi tarazlaşdırır, xərçəng riskini azaldır. Eyni zamanda maqnezium, kalium və C vitamini qaynağı olan alma digər meyvələrə nisbətən daha böyük bir təsirə malikdir.

Bu səbədən də, hər gün alma istehlak edən kəslərin sağlam bir həyat sürdükləri görünür. Alma ilə birlikdə digər meyvələri və tərəvəzləri istehlak etmək də sağlamlığınıza və daha uzun yaşamağınıza kömək olur.



## Allah rəhmət eləsin

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri e. o general-mayor Dadaş Rzayev və Təşkilatın kollektivi Cahangir Nəsirovun həyat yoldaşı

***Zinaida Nəsirovanın***

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Nizami Rayon Veteranlar Təşkilatının kollektivi Nizami Rayon İcra Hakimiyyətinin başçısının müavini İldırım Mehdiyevin atası

***Fehruz Mehdiyevin***

vəfatından kədərləndiklərini bildirir və yaxınlarına dərin hüznlə baş sağlığı verirlər.

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
***Məsul katib***
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:*** *012 440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 50 qəpik*
*Tiraj: 1250*